# Dahi şəxsiyyət Heydər Əliyev mənim taleyimdə

*Xalqımızın ümummilli lideri Heydər Əliyev mədəniyyət, incəsənət, təhsil işçilərinə həmişə diqqət və qayğı göstərir, onlarla görüşlərində səmimi söhbət edir, dəyərli məsləhətlər verir, lazımi köməklik göstərirdi.*

*Dahi şəxsiyyət 1980-ci ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi işləyərkən Naxçıvan MR-ə gəlmişdi, Şərur rayonunda Arpaçay dəryaçasının tikintisində, rayonun Siyaqut, Xanlıqlar kəndlərinin üzüm bağlarında, Babək, Şahbuz, Culfa, Ordubad rayonlarının təsərrüfatlarında, Ordubad konserv zavodunda, baramaçı fabrikində əmək adamları ilə görüşdü, onların qayğıları ilə maraqlandı. Hər iki müəssisənin direktoruna tapşırıqlar verdi, bildirdi ki, konserv zavodunun məhsullarını təkcə Rusiyaya deyil, xarici ölkələrə də göndərilməsi üçün tədbirlər görülməlidir. Mən də operator Ənvər Rəhimovla birlikdə həmin görüşdən reportaj hazırlamışdım. Həmin gün ulu öndər televiziyada verilişi izlədikdən sonra Naxçıvan Vilayət Partiya Komitəsinin birinci katibi Kamran Rəhimova tapşırmışdı ki, mənim, eləcə də operatorun əməyini qiymətləndirsin. Çox keçmədi mənə Əməkdar jurnalist, kinooperator Ənvər Rəhimova Əməkdar kinooperator fəxri adı verildi.*



Dahi şəxsiyyət Heydər Əliyev Moskvada SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsindən istefa verdikdən sonra Bakıya, iki gün sonra anadan olduğu, gənclik illərini yaşadığı, işlədiyi Naxçıvana gəldi. Muxtar respublikanın adlı-sanlı ziyalıları onu görməyə gəlmişdilər. Kinooperator Məmməd İsmayılovla birlikdə ümummilli liderdən müsahibə almaq üçün yaşadığı evə getdik. Böyük insanla ikinci görüşümdə bildirdi ki, müsahibəyə baxıb və verilişin ağ-qara lentdə olmasının səbəbini soruşdu. Mən dedim ki, Naxçıvan televiziyasında köhnə avadanlıqlardan istifadə olunur. Bir müddət keçəndən sonra ulu öndərin Babək rayonunun Nehrəm kəndindən Azərbaycan Respublikası Ali Sovetinə və Naxçıvan şəhərindən Naxçıvan Muxtar Respublikası Ali Sovetinə deputatlığa namizədliyi irəli sürüldü. Bununla bağlı televiziyada çıxış etməsi üçün ulu öndərin yaşadığı evə getdim, studiyaya gəlməsini xahiş etdim. Həmin gün studiyaya gəldi. Televiziya binasının həyətində ağac qutularda olan avadanlıqlara baxdı. Onların nə üçün istifadə olunmadığını soruşdu. Bildirdik ki, mütəxəssis olmadığından avadanlıqlar quraşdırılmayıb. Bir neçə gündən sonra məlum oldu ki, ulu öndər Heydər Əliyev Moskva Dövlət Televiziya Komitəsinə zəng vurub, mütəxəssis göndərilməsinin vacib olduğunu bildirib. Mütəxəssislər gəlib avadanlıqları quraşdırdılar. Bu avadanlıqlar verilişlərin keyfiyyətinin xeyli yüksəlməsinə imkan verdi.

Ermənistanla sərhəddə olan Sədərək qəsəbəsinə, dağ kəndlərinə ermənilər silahlarla atəş açırdılar. Atəş nəticəsində Sədərəkdə Elvin və Malik adlı iki uşaq həlak olmuşdu. Ermənilərin təxribatlarının qarşısını almaq üçün insanların ümidi ulu öndər Heydər Əliyevə idi. Rayon mərkəzlərindən, dağ kəndlərindən ulu öndərlə görüşə gələn insanlar Naxçıvan şəhərinin mərkəzi meydanına toplaşmışdılar. Onların qarşısında çıxış edən ümummilli lider bildirdi ki, Sədərəkdə, Ermənistanla sərhəddə olan kəndlərdə döyüşçü dəstələri yaradılmalıdır. Bu təklif bəyənildi. Nehrəm kəndinin ağsaqqalı Muradəli kişi çıxışında dedi ki, Naxçıvan əhalisinin sizə möhkəm inamı var. Siz yurdumuzun xilaskarısınız. Həqiqətən də Heydər Əliyev müdrikliyi sayəsində torpaqlarımıza düşmən ayağı dəymədi, sərhədlərimiz möhkəm qorundu.

Qeyd edim ki, həmin dövrdə muxtar respublikanın blokadada olması əhalinin yaşayışını çox çətinləşdirmişdi. Zavod və müəssisələr işləmir, əhali çətin vəziyyətdə yaşayırdı. Bunu aradan qaldırmaq üçün ulu öndər Heydər Əliyev Türkiyə Respublikasına səfər etdi. Türkiyə Prezidenti Süleyman Dəmirəllə görüşdü. Bundan sonra Türkiyə Respublikasından Naxçıvana maşınlarla taxıl göndərildi. Araz çayı üzərində Sədərək rayonu ərazisində körpü tikildi. Körpünün açılışında ümummilli lider Heydər Əliyevlə Türkiyə Prezidenti Süleyman Dəmirəl iştirak etdilər. Bu körpünün açılışı Naxçıvanda əhalinin yaşayışının xeyli yaxşılaşmasına səbəb oldu.

Qeyd edim ki, Naxçıvan MR Ali Məclisinin Heydər Əliyevin sədrliyi ilə keçirilən sessiyaları, xarici ölkələrdən gələn qonaqlarla görüşləri də mənim tərəfimdən televiziya və radioda işıqlandırılıb. Özümü xoşbəxt hesab edirəm ki, görkəmli şəxsiyyət Heydər Əliyevlə görüşlərim olub, onun muxtar respublikada keçirdiyi tədbirlər barədə televiziya və radioda verilişlərini hazırlamışam.

**Arif HƏBİBOV,**
**Əməkdar jurnalist.**